


# «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında tikinti sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında tikinti sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 11 may 2006-cı il***

***№ 1446***